GAZELLI ART HOUSE



Tezlik (G8IV). *2016*

# Stenli Kasselman

*İşıq labirintləri*

*Açılış: 18 May, Şənbə 18:00-20:00*
*Sərgi: 19 May–2 Noyabr, 2019*

*"Ağlımdan çıxmayan bir sadə fikir- İnnovasiya və ya ölüm. Eyni şeylərə təkrar-təkrar düzəlişlər etmək bəzən məni dəhşətli dərəcədə yorur. Məhz buna görə mənim sənət əsərlərim daim inkişaf prosesindədir."*
Stenli Kasselman

«Gazelli Art House» Bakı, Deyvid Anfamın kuratorluğu altında Stenli Kasselmanın dörd illik təşviqat nəticəsi olan *İşıq labirintləri* sərgisini təqdim etməkdən böyük məmnunluq duyur. Bu Kasselmanın qaleriya ilə ikinci solo sərgisidir və rəssamın *Tezlik, Adsız- Mövcudluq, Bir Gün və Maye* seriyalarından bəzi əsərlərini özündə cəmləşdirir.

Karyerası boyunca Kasselmanın bütün işləri işiq xüsusiyyətlərinin füsunkarlığı ilə dolub. 25 il əvvəl Vestminster abbatlığının vitraj şüşələrindən ilhamlanan Kasselman arxa fonu işıqlı şəkillər yaratmaqla öz bədii fəaliyyətinə başladı. Daha sonra isə o diqqətini poliefir ekranlı işlərinə fokuslayaraq bu sahədə novatora çevrilir.

Kasselman təpələr, vadilər, zirvələr və çökəkliklərlə dolu cəsarətli, geniş miqyaslı, abstrakt şəkilləri ilə işığın müxtəlif xüsusiyyətlərini əks etdirir. *Tezlik və Adsız- Mövcudluq* seriyasından olan bu rəngarəng labirintlər səthi gərginliyi və abstraktlığı orijinal üsul ilə çatdırır.Kasselmanın şəxsən düzəltdiyi alətlərilə, böyük zəhmət tələb edən proses səth üzərində qat qat salınan boyalardan ibarətdir məsələn *Bir Gün* seriyasında olduğu kimi. Nəticələr həm minimalist, həm də rəng, xətt və formanın incə dəyişikliklərini göstərən detallarla zəngin olur.

Denverdə Still Clyfford Muzeyinin baş məsləhətçi kuratoru David Anfam: "*Maye* seriyasından olan yeni kompozisiyalar sprey xromu kimi tanınan sənaye prosesini əks etdirir və onların hazırlanmasında gümüşü nitratın səthin üzərinə çəkilməsi üçün su əsaslı mayedən istifadə olunur və bu da öz növbəsində əsərlərin üzərində yansıtıcı güzgü  effektinin yaranmasına gətirib çıxarır. Kasselmanın əllərində əsərlər işıq saçan, xəyali, labirint formalı landşaft içərisinə səyahətə çevrilir".

**«Gazelli Art House»** qaleriyasının təsisçisi və rəhbəri Mila Əsgərova: “ Biz bu çoxdan gözlənilən əməkdaşlığın nəticəsini Bakı qaleriyasında təqdim etməkdən məmnunuq. İlk sərgimizin keçirildiyi 2014-ci ildən bu günə kimi Stenli davamlı olaraq yaradıcılığın və yaratdıqlarının sərhədlərini daimi genişləndirərək nəticə etibarı ilə inanılmaz yüksəkliklərə çatdı”.

**Stenli Kasselman** 1963-cü il Arizona ştatının paytaxtı Finiks şəhərində doğulub. Onun əsərləri Los Ancelesdəki yerləşən Fredrik R. Weisman İncəsənət Fondu, Kaliforniya ştatı, Yeni Orlean şəhərində Yeni Orlean İncəsənət Muzeyi, Luiziana və Tükiyənin İstanbul şəhərindəki Müasir İncəsənət Muzeyləri də daxil olmaqla dünya muzeyləri tərəfindən toplanılıb və nümayiş olunub.

**David Anfam** Denverdə Still Clyfford Muzeyinin baş məsləhətçi kuratoru və London İncəsənət Araşdırmaları MMC-nin icraçı direktorudur. Dr. Anfamın nəşirlərinə *Mark Rothko – Kətan üzərində işləri* : *Kataloq Raisonné* (1998) daxildir. Bu yaxınlarda Anfam Londonda Kral İncəsənət Akademiyasında Abstrakt Ekspressionizm sərgisinə kuratorluq edib (2016-17).

# Gazelli Art House haqqında

**«Gazelli Art House»**  Müasir İncəsənət Qaleriyası, London və Bakıda yerləşən sərgi məkanları, habelə qlobal ictimai layihələr vasitəsi ilə geniş tamaşaçı kütləsinə çoxşaxəli və dinamik proqramları təqdim edərək, bir çox beynəlxalq səviyyəli rəssamları dəstəkləyir. 2003-cü ildə **«Gazelli Art House»** Bakıda təsis edilib və ilk olaraq bu məkanda Azərbaycan rəssamlarının iştirakı ilə sərgilər keçirib. Londonda konseptual baxımdan bir-biri ilə əlaqəli xarici sərgilər keçirəndən sonra,  **«Gazelli Art House»** qaleriyasının təsisçisi və rəhbəri Mila Əsgərova, 2012-ci ilin Mart ayında Londonun məşhur Dauer küçəsində daimi sərgi məkanını təsis etdi. 2017-ci ildə **«Gazelli Art House»** Bakıda tamami ilə yenilənmiş məkanında yerli və beynəlxalq rəssamların iddialı, illik sərgi proqramları ilə yenidən öz qapılarını ziyarətçilər üçün açdı. Rəssamlıq, heykəltəraşlıq, interaktiv quraşdırmalar, fotoqrafiya və müxtəlif rəqəmsal incəsənət növləri də daxil olmaqla müxtəlif texnikalar  ilə işləyən qalereyanın daima təmsil etdiyi rəssamlara *Derek Boşyer, Aziz + Kuçer, Şarlotta Kolbert, Françesko Cudis, Kalliopi Lemos, Niyaz Nəcəfov, Risaykl Qrup, Stenli Kasselman* və bir çox digərləri daxildir.

*Daha ətraflı məlumat üçün zəhmət olmasa əlaqə saxlayın:* **press@gazelliarthouse.com**